# GÜNDOĞAR



Qəzet 1931-ci ildən çıxır | NEFTÇALA RAYON QƏZETİ | 30 oktyabr 2023-cü il , № 25 (68060)




**2023 - cü il AZƏRBAYCAN RESPUBLİKASINDA “HEYDƏR ƏLİYEV İLİ”DİR!**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: “Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun!”**



**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: *“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

## İNAMIN, ETİBARIN TƏCƏLLİSİ - QARABAĞ AZƏRBAYCANDIR!

Tarixin amansız sınaqları qarşısında daim mərdanə dayanan Azərbaycan itirilmiş yurd yerlərini qaytarmaq üçün bir qərinə gözlədi. Bu illərdə adı atəşkəs olsa da, daim sərhədlərimizdə təxribatlar törədən, “dənizdən - dənizə” deyərək miskin, əsassız bir düşüncənin girdabında öz qanından olanları da məhv edən ermənilərin sülhə gəlməsi, sülhü anlaması üçün bütün beynəlxalq qurumlara müraciət etdi. Lakin bu illər ərzində hər bir təşkilat nümayəndələri sadəcə “gəldi”, “getdi”. Azərbaycanın harayına yanan olmadı. Tək bizim sözümüz deyil, elə BMT – nın da, digər təşkilatlardan verilən qətnamələr də səssiz-səmirsiz “yatıb” qaldı. Belə olan təqdirdə Ali Baş Komandan cənab İlham Əliyev bu vandal ermənilər qarşısında, onların çirkin niyyətləri qarşısında tək bir cümlə ilə fikrini bildirdi və qətiyyətlə arxasında dayandı. QARABAĞ AZƏRBAYCANDIR! Bu fikir bütün xalqımızın intizarla gözlədiyi vətən həsrətinə işıq saldı. Bu şimşək kimi çaxan, odlar ölkəsinin poladtək bərkimiş xalqı idi. Öz yurdundan didərgin düşən, əzizlərinin məzarlarına həsrət qalan, məzarsız, itkin şəhid övladına əli yetməyən, qovuşa bilməyən anaların səsi idi. Viran qalan məscidlərimizin, dağıdılmış ocaqlarımızın, bir bayraq ucaltmağa dirəyi qalmayan əllərimizin vandallardan, vəhşi tayfanın əsarətindən qurtulması demək idi.

Biz bu qədər müddəti gözləməkdə niyyətimizin sülh olduğunu bildirmək, qonşu xalqlarla dinc şəraitdə yaşamaq düşüncəmizin bir həyat reallığı olduğunu bildirmək idi. Digər tərəfdən mənfur düşmən bu illər ərzində o qədər “özündən razı” hala düşmüşdür ki, onun gözləri qarşısında ucalan Azərbaycanın uğurlarını görməyə kor olmuşdur. Daim böyük imperiyaların qulu olaraq, onlara yalvararaq “yazıq” adı ilə yaşayan erməni, bu qüdrəti görə bilməzdi. Və bu birlik, bu sədaqət 44 gün davam edən Vətən müharibəsində onların uydurduğu mifi yerlə - yeksan elədi. Nəticədə bu bədbəxt, mənfur hiyləgər tayfanın nümayəndələri yenə “Fransaya kölə olmaq”, “Amerikaya səs olmaq”, “İrana qul olmaq” missiyaları ilə ora-bura boylanmağa başladılar.




Nə qədər miskin bir qonşularımız var? Əsrlər boyu sərvət üçün yurdumuzu talamaq onların əbədi arzusu olmuşdur. Biz bu yolda çox şəhid vermişik. Tarixin sübut etdiyi mənbələrə göz yuman “böyük güclər” isə münasibətlərin bu yöndə düyün düşməsində maraqlıdırlar. Səbəb çox olsa da, bizim üçün bir anlayış var. Vətəndən pay verilməz!

Bu gün Azərbaycan Respublikası Qafqaz bölgəsinin yeni və dayanıqlı təhlükəsizlik sistemini yaratmaqla bərabər, Avrasiya məkanında etibarlı təhlükəsizlik mühitinin formalaşmasına əməli töhfələr verir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan quruculuq strategiyasının bu sahədə də uğurla reallaşması respublikamızı regionun lider dövlətinə, qlobal miqyaslı nüfuz sahibinə çevirmişdir.

2003-cü ildən bu günə qədər, Azərbaycanın son iyirmi ildə qazandığı misilsiz nailiyyətlər, birmənalı olaraq, möhtərəm Prezident İlham Əliyevin müdrik siyasətinin, qətiyyətli, qüdrətli liderliyinin nəticəsi, bariz nümunəsidir. Bu günlərdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun tam təmin edilməsi isə dövlət başçısı kimi fəaliyyətinin 20-ci ildönümü tamam olan cənab İlham Əliyevin tarixi missiyasının ən parlaq məqamlarından deyə bilərik.

Xalqımıza böyük qürur bəxş edən son hadisələr Vətən müharibəsində əldə olunan Zəfərdən sonra aparılan hərbi-siyasi proseslərin, yenə də məhz möhtərəm Prezidentimizin “Dəmir yumruğ”unun qəti qələbəsi idi. Cəmi 23 saat ərzində həyata keçirilən lokal miqyaslı antiterror tədbirləri nəticəsində qazanılan nailiyyət tarixi Zəfərin ildönümü ərəfəsində xüsusi əhəmiyyət kəsb edir.

Bu illər ərzində Zəfərə doğru pillə-pillə irəliləyən, həyata keçirdiyi hər bir layihə arxasında qətiyyətli məqsədlə dayanan Müzəffər Ali Baş Komandan son sözünü deyərkən də yenə səbirlə gözlədi. Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulması “Dəmir yumruğ”un gücünün, mövcudluğunun davamlılığını əyani göstərdi. Lokal miqyaslı antiterror tədbirləri isə separatçı rejimin tam iflasını və ərazimizdə mövcud olan "boz zona"nın birdəfəlik ləğvini təmin etdi.

Bu gün işğaldan azad edilmiş bütün rayonlarımızda bərpa quruculuq işləri geniş miqyasda həyata keçirilir. “Böyük Qayıdış” artıq reallıqdır. Oktyabr ayının 17-də Tərtər rayonuna səfər edən cənab Prezident İlham Əliyev burada Suqovuşan qəsəbəsində istirahət parkının, Suqovuşan su anbarının təmir-bərpadan sonra açılış mərasimində iştirak edib. Sərsəng su anbarının ərazisində Dövlət Bayrağını ucaldıb. Elə həmin gün yenə də Ağdərə şəhərində, Xankəndi şəhərində Dövlət Bayrağını ucaldıb. Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində, Şuşa rayonunun Malıbəyli kəndində olub. Xocalı şəhərində, həmçinin Xocalı rayonunun Əsgəran qəsəbəsində, Xocavənd şəhərində Dövlət Bayrağı ucaldıb, Əsgəran qalasında olub. Cənab Prezident Füzuli şəhərinə səfər edərək bu əlamətdar gündə Ağdam-Füzuli avtomobil yolunun tikintisi ilə tanış olub, Füzuli rayonunda Çuvarlı kəndinin, Qoçəhmədli kəndinin təməlini qoyub. Eyni zamanda Füzuli şəhərində idman kompleksinin, yenə Füzuli şəhərində ikinci, üçüncü yaşayış komplekslərinin təməlini qoymuşdur. Həmçinin burada inzibati binanın təməlini qoymaqla yanaşı, 240 yerlik uşaq bağçasının da təməli qoyulmuşdur. “Füzuli Şəhəri Günü”ndə cənab Prezident Füzuli şəhərinə köçmüş sakinlərlə, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Bütün bu görülmüş işlər AZƏRBAYCANIMIZIN uğurlu inkişafıdır.

## ŞƏHİD ÖMÜRLƏR UNUDULMUR!

***Neftçala rayonunda şəhid Əliyev Sərxan Rabil oğlunun 40 mərasimi keçirilib və məzarı ziyarət olunub.***

Tarixi zəfərimizi qəbul edə bilməyən düşmən öz məkrində boğulacaqdır. Yalan vədlər, fitnəkar qruplaşmalar Azərbaycan xalqının haqq yoluna əngəl ola bilməyəcəkdir. 20 sentyabr 2023-cü il tarixində torpaqlarımızda qanunsuz qruplaşmalara, terrorçu birliklərə qarşı keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı Neftçala rayonundan beş nəfər hərbi qulluqçu vətən yolunda şəhadətə ucalmışdır. Onlardan biri də Əliyev Sərxan Rabil oğludur. Oktyabr ayının 29-da şəhidimizin 40 mərasimi keçirilmişdir. Mərasimdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, şəhidin hərbçi yoldaşları, qazilər, din xadimləri və rayon ictimaiyyəti iştirak edib.

12 sentyabr 2003-cü ildə Neftçala rayonunda anadan olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Əliyev Sərxan Rabil oğlu 20 sentyabr 2023-cü il tarixində Neftçala şəhəri Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Allah vətənimizin azadlığı yolunda candan keçən bütün şəhidlərimizin məkanın behişt eləsin. Ailələrinə səbir versin. Amin.

**Şəhid ömürlər vətən tarixidir, əbədi, dəyişməz!**









# MUSTAFA KAMAL ATATÜRK: "ƏGƏR BIR GÜN MƏNİM SÖZLƏRİM ELMLƏ ZİDDİYYƏT TƏŞKİL EDƏRSƏ, SİZ ELMİ SEÇİN!"

## TÜRKİYƏ CÜMHURİYYƏTİ - 100




**Türkiyə Respublikasının Prezidenti Zati-aliləri**
**cənab Rəcəb Tayyib Ərdoğana**
**28 oktyabr 2023, 17:04**

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Əlamətdar tarix – Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə Ulu Öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir. Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir.

Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq.

Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik.

Bu tarixi gündə Sizin və qardaş Türkiyə xalqının sevincinə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

**Hörmətlə,**
**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 oktyabr 2023-cü il**

---

## *Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası*

Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzaladılar.



---












## "SÖZÜMÜZ İMZAMIZDIR!"

13 Oktyabr 2023 tarixində Yeni Azərbaycan Partiyası (YAP) Neftçala rayon təşkilatı tərəfindən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ilk dəfə prezident seçilməsinin 20 illiyi münasibətilə "Sözümüz imzamızdır!" adlı ümumrayon tədbiri keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev Prezident İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti dövrü haqqında geniş məlumat verib. Bildirib ki, Ulu öndər Heydər Əliyev siyasətinin davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan yüksəlişə və dinamik inkişafa nail olub. Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin yürütdüyü çoxşaxəli siyasət nəticəsində dünyada sayılıb-seçilən dövlətlərdən birinə çevrilib. Daha sonra çıxış edən partiyanın veteran üzvü Oktay Kərimov, Vətən müharibəsi qazisi Yusif Abdullayev, ərazi partiya təşkilatının sədrləri Şəfəq Balaşova, Elşad Əhmədov 20 il müddətində Azərbaycanda inkişaf və tərəqqidən, xüsusilə zəfər tariximizdən, bu illər ərzində həyata keçirilən ardıcıl, güclü daxili və xarici siyasətin cənab Prezident İlham Əliyevin qətiyyəti sayəsində yüksəldiyini qeyd edib, respublikamızda həyata keçirilən quruculuq işlərinə münasibət bildirib, "Böyük Qayıdış" tədbirlərini sevinclə qeyd ediblər.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov cənab Prezident İlham Əliyevin siyasi fəaliyyətinin, respublikamızda həyata keçirilən güclü daxili siyasətin, xarici əlaqələrin, beynəlxalq miqyasda həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb. Ölkəmizdə vətənpərvərlik təbliğatının, vətən sevgisinin yüksək səviyyədə formalaşmasında cənab Prezidentin həyata keçirdiyi ardıcıl, məqsədyönlü siyasətin vacib rolunu vurğulayıb. Bildirilib ki, 44 günlük Vətən müharibəsində xalqımızın əldə etdiyi qələbə vətən övladlarının cəsarəti, onların Ali Baş Komandana dərin inamı, eyni zamanda ölkə rəhbərinin mükəmməl liderliyinin bariz nümunəsidir. Bu birlik daim qorunacaq, Azərbaycanın yüksəlişi naminə davamlı olacaqdır.

Tədbirdə Prezident, Cənab İlham Əliyevin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Daha sonra tədbir ŞSRMİ-nin Neftçala rayon Mədəniyyət Mərkəzinin təşkil etdiyi milli-vətənpərvərlik ruhunda konsert proqramı ilə davam edib. Tədbirdə Kamran Hüseynov "Azərbaycan", Mahmud Mahmudov "Azərbaycan", Dürdanə Ələkbərova "Qarabağ", Rövşən Mehdiyev "Xudayar təsnifi"ni səsləndiriblər. Qiraətçi Əfsər Hüseynlinin vətənpərvərlik hisslərinin tərənnümü ilə səsləndirdiyi ədəbi nümunə alqışla qarşılanıb.

Tədbir YAP Neftçala rayon təşkilatı tərəfindən bir qrup şəxsin "Partiyanın ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə" Fəxri Fərmanla təltif olunması ilə sona çatıb.

# TARİX YAZAN ƏBƏDİYAŞAR LİDER

*Neftçala rayonunda 18 oktyabr "Müstəqilliyin Bərpası Günü" qeyd olundu*







Dövlət müstəqilliyimizin yenidən bərpa edilməsinin 32-ci ildönümünə həsr edilmiş "Tarix yazan əbədiyaşar lider" başlıqlı tədbir Ulu öndər Heydər Əliyevin və Vətən uğrunda can qurban edən oğulların xatirəsinin yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, rayonun idarə və təşkilatlarından məsul işçilər, nümayəndələr iştirak edirdi.

Tədbirdə Neftçala rayon C.Əhmədov adına Cəngan kənd tam orta məktəbinintarix Şəhrəbanu Ağalarova müstəqillik yollarının geniş təsnifatını verməklə çıxış etdi. Daha sonra çıxış edən tarix elmləri üzrə fəlsəfə doktoru Sübhan Talıblı, təhsil işçisi, yazıçı, publisist Ruhəngiz Nəcəfova, rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Gülnarə Qasımova və YAP Neftçala rayon təşkilatının əməkdaşı Fərhad Baxışov Ulu öndər Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərindən, xalqımızın zamanın mürəkkəb tarixi-siyasi sınaqları zamanı göstərdiyi qətiyyətli daxili və xarici siyasətdən, uzaqgörənliklə imzalanmış qərarlarından, bu xidmətin Azərbaycan dövləti üçün əhəmiyyətindən danışdılar, tarixi faktları xüsusi qeyd etdilər. Qeyd olundu ki, zamanında verilmiş düzgün, qətiyyətli addım bu gün Azərbaycanın dünya dövlətləri sırasında mövqeyinin yüksəlməsinə xidmət etmişdir. Ona görə deyirik ki, müasir Azərbaycanın inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır, onun həyat amalının təntənəsidir. Ulu öndər Heydər Əliyevin fəaliyyəti dövründə tarixi və siyasi ənənələrə, milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirilməsi, yenilikçi, mütərəqqi baxışlara əsaslanan və xalqın xoşbəxt gələcəyinə hesablanan çox mühüm təşəbbüslər, qərarlar qəbul edilməsi zamanın sınağından uğurlu nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Güclü dövlət siyasəti tarixi zəfərə yol çəkmişdir. Bu gün Azərbaycan öz torpaqlarının, sərhədlərinin tam hüquqlu sahibidir.

Tədbirdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmişdir. Onun davamı olaraq, Sovet imperiyasının dağılması zamanı Azərbaycan xalqı yenidən öz milli müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunub. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşub. Müstəqillik haqqında aktın qəbul olunmasının 32-ci ilində biz həm müstəqilliyimizin bərpasının 32-ci ildönümünü, həm də 44 günlük Vətən müharibəsinin, torpaqlarımızın azad edilməsinin 3-cü ildönümünü qeyd edirik. Dövlət müstəqilliyinin əldə edilməsi xalqımızın ən böyük nailiyyətlərindən biridir. Əldə edilən müstəqilliyin, vətəndaş birliyinin, həmrəyliyin, sabitliyin qorunub saxlanılması, Azərbaycanın müstəqil dövlət olaraq dünya dövlətləri sırasında rolunun və nüfuzunun möhkəmləndirilməsi məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında regionun lider dövləti kimi Azərbaycanın beynəlxalq nüfuzu və iqtisadi qüdrətinin artması ölkəmizdə iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi ilə yüksəlib. Əhalinin həyat səviyyəsi yaxşılaşdırılıb, respublikamızın müdafiə qüdrətinin artırılması sahəsində böyük uğurlara nail olunub və müstəqilliyimiz daha da möhkəmlənib. Dövlətimizin möhkəmləndirilməsində, iqtisadiyyatın inkişafında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında Ümummilli lider Heydər Əliyevin siyasi xətti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu ilin 19-20 sentyabr tarixində həyata keçirilən antiterror tədbirləri zamanı ordumuzun qüdrəti bir daha özünü göstərdi və Prezident cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq torpaqlarımız gizli terrorçu qruplardan zərərsizləşdirildi, suverenliyimiz tam bərpa olundu.

Tədbirin sonunda Azərbaycanın dövlət quruculuğunda xüsusi xidmətləri olan Ulu öndərə həsr edilmiş "Heydər Əliyev müasir və Müstəqil Azərbaycanın qoruyucusudur" adlı videoçarx nümayiş etdirildi.

# *SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR*







Ulu öndər Heydər Əliyevin və vətən uğrunda candan keçən şəhidlərimizin xatirəsinin yad edilməsi ilə başlayan səyyar görüşlər Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun rəhbərliyi ilə oktyabr ayında da davam etmişdir. Müntəzəm keçirilən səyyar görüşlər əhalinin rəhbərliklə davamlı ünsiyyətini asanlaşdırır, onları narahat edən problemlər, çətinliklər və yaxud təkliflərlə bağlı müraciətlərini daha da asan edir. Səyyar görüşlərdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib. Oktyabr ayında keçirilən səyyar görüşlərdə əhali fəal iştirak etmiş, görülmüş işlərlə bağlı öz məmnunluqlarını, eyni zamanda arzu və təkliflərini bildirmişlər. Oktyabr ayında səyyar görüşlər Neftçala rayonunun Aşağı Qaramanlı, Yuxarı Qaramanlı, Qədimkənd, I Qaralı, Sarıqamış, Yeniqışlaq, Haqverdili, Xoltəzəkənd kəndlərini əhatə etmişdir. Yuxarı Qaramanlı kəndində "Ölkəmizin xarici siyasət quruculuğunda Ümummilli Lider Heydər Əliyev strategiyası" mövzusunda, I Qaralı və Qədimkənd kəndində "Əsrin müqaviləsi tarixi zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda, Sarıqamış, Yeniqışlaq və Haqverdili kəndlərini əhatə edən səyyar görüşdə "Tarix yazan əbədiyaşar Lider" mövzusunda, Xoltəzəkənddə "Qısa müddətli antiterror tədbirləri, Azərbaycanın suverenliyinin bərpa olunmasını şərtləndirdi" mövzusunda görüş iştirakçılarına məlumat verilmişdir.

Səyyar görüşlərdə istər Vətən müharibəsində, istərsə də, antiterror hadisələri zamanı şəhid olmuş hərbi qulluqçuların əziz xatirəsi ehtiramla yad edilib. Qazilərimizə Allahdan şəfa arzu edilib. 2023-cü ilin "Azərbaycan Respublikasında Heydər Əliyev ili" olması ilə bağlı görülmüş işlər haqqında məlumat verilib.

→ 4




## *"Heydər Əliyev və Azərbaycanda təhsil"*

5 oktyabr 2023-cü il tarixində Neftçala rayon 2 saylı tam orta məktəbdə "Beynəlxalq Müəllimlər Günü" münasibətilə "Heydər Əliyev və Azərbaycanda təhsil" mövzusunda tədbir keçirilib. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Şirvan Salyan Regional Təhsil İdarəsinin əməkdaşı R.Baxışov, RİH-in məsul şəxsləri, müəllimlər, ictimaiyyət nümayəndələri iştirak edib. Tədbirdə çıxış edənlər - R. Baxışov, V.Qələşov, E.Uğur, F.Tağıyev. L.Əzizova təhsildə qazanılan uğurlardan, 44 gün davam edən Vətən müharibəsində şərəfli zəfər yolumuzdan danışaraq xalqımızın bu həmrəyliyinin daim qorumalı olduğumuzu qeyd ediblər. Tədbirdə Ulu öndər Heydər Əliyevin müəllim peşəsinə verdiyi dəyər qeyd olunub. Bildirilib ki, müəllimlər cəmiyyətimizdə vətəndaş tərbiyəsində, onun formalaşmasında, elmə, peşəyönümünə maraqlı olmasında, cəmiyyətimizin inkişafı üçün vətənsevər şagirdlər tərbiyə edilməsində çox məsuliyyətli, şərəfli işin icrası ilə məşğuldurlar. Və bu şərəfli iş hər yeni tədris ilində əvvəlkindən daha mükəmməl şəkildə icra edilməlidir.

Tədbirdə fəaliyyəti ilə seçilən müəllimlər Fəxri Fərmanla təltif ediblər.

# Neftçala rayonunda Azərbaycan Qadınlarının VI Qurultayına hazırlıq məqsədilə konfrans keçirilib

5 oktyabr 2023-cü il tarixində Neftçala rayonunda Azərbaycan Qadınlarının VI Qurultayına hazırlıq məqsədilə Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Rayon İcra Hakimiyyətində Rayon Qadınlarının VI Konfransı keçirilib. Konfransda rayon İcra Hakimiyyətinin məsul işçiləri, rayonun təhsil, səhiyyə, mədəniyyət sahəsində çalışan, rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən ziyalı qadınlar, şəhid və qazi ailələrinin üzvləri iştirak edib. Konfrans iştirakçıları Neftçala şəhərinin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Konfrans Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsinin yad edilməsi ilə başlayıb. Konfransda çıxış edən Neftçala Rayon İcra Hakimiyyəti başçısının müavini, “Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması” şöbəsinin müdiri Burcalı Ağayev rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun konfrans iştirakçılarına təbrikini diqqətə çatdırıb və Azərbaycanda Dövlət Qadın siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlər haqqında geniş məlumat verib.

Konfransda Rayon İcra Hakimiyyətinin Başçısı aparatının Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu Esmira Məmmədzadə rayon qadınlarının V konfransından VI konfransınadək ötən müddət ərzində rayon ərazisində ailə qadın siyasəti sahəsində aparılan işlər, əldə olunan uğurlar və qarşıda duran məsələlər haqqında konfrans iştirakçıları qarşısında geniş məruzə ilə çıxış edib. Daha sonra çıxış edən şəhid anası Arzu Əliyeva, Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü Ruhəngiz Nəcəfova, Neftçala rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsinin həkimi, Neftçala rayon Səhiyyə işçilərinin Həmkarlar İttifaqı Şurasının sədri Nəcibə Abdullayeva, Şirvan-Salyan Gənclərin İnkişaf və Karyera Mərkəzinin Neftçala bölməsinin mütəxəssisi Əfsanə Abdullazadə, rayon “Gündoğar” qəzetinin baş redaktoru Bədirə Niftaliyeva çıxış edərək qadının ailədə və cəmiyyətdə xüsusi hörmətə malik olmasından, gənc nəslin tərbiyəsində müstəsna xidmətlər göstərməsindən danışıb, qadınların bundan sonra da həyatımızın müxtəlif sahələrində öndə olmalarını arzulayıblar.

Çıxışlardan sonra konfransda iştirak edən rayon qadınlarını maraqlandıran suallar cavablandırılıb və Azərbaycan Qadınlarının VI Qurultayında səsləndirilməsi üçün onların təklif, istəkləri dinlənilərək qeydə alınıb.

Konfransın sonunda konfrans iştirakçıları ilə xatirə şəkili çəkilib.





3 ←

## SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR

Səyyar görüşlər zamanı kənd yolları, elektrik təsərrüfatının yenilənməsi, əlillik dərəcəsinin təyin olunması, kəndlərarası avtobusların gediş - gəliş cədvəlinə yenidən baxılması və digər məsələlər ilə əlaqədar təkliflər səsləndiriblər.

Səyyar görüşlər zamanı çıxış edən rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov antiterror tədbirləri zamanı Azərbaycan hərbçilərinin həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər nümayiş etdirməsi və Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Silahlı Qüvvələrimiz heç bir mülki şəxsə ziyan vurmayaraq, dinc sakinləri hədəfə almayaraq, hərbi obyektlərə atəş açmasını qeyd etdi. Bu fikirlərlə bir daha dövlətimizin, ölkə rəhbərinin nə qədər bu məsələlərə həssaslıqla yanaşmasını bir daha vurğulamışdır. Qeyd edilmişdir ki, 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenliyin tam bərpa edilməsi haqqında məlumat verib. RİH-in başçısı cənab Mirhəsən Seyidov qeyd etdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, əsgər və zabitlərimizin, xalqımızın birliyi nəticəsində torpaqlarımız 44 gün davam edən Vətən müharibəsi nəticəsində işğaldan azad olunub. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işləri ilə yanaşı, digər rayonlar da yaddan çıxmır. Eləcə də Neftçala rayonunda yenidənqurma işləri davam edir.

Səyyar görüşlərdə əhaliyə Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yeni yaradılan “Rəqəmsal İcra Hakimiyyəti” https://rih.gov.az portalına daxil olmaq imkanı haqqında da məlumat verilmişdir.

## QAZİLƏRİMİZƏ DİQQƏT VƏ QAYĞI İLƏ...

Vətən oğullarının fədakarlığı hər bir azərbaycanlı üçün örnəkdir. Odun-alovun içindən çıxan qazilərimizə dəstək olmaq, onların qayğıları ilə maraqlanmaq da vacibdir, vətəndaş mövqeyidir ki, hər birimiz bu işlərdə birlik nümayiş etdirməliyik, yaralara məlhəm olmağa çalışmalıyıq. Belə məsul insanlarımızdandır YAP Neftçala rayon təşkilatının əməkdaşları. Onlar Ülvi müəllim başda olmaqla bütün əməkdaşları ilə birlikdə 19-20 sentyabr tarixlərində keçirilən lokal antiterror tədbirləri zamanı yaralanan hərbi qulluqçularımızı ziyarət ediblər. Rayonun Xol Qaraqaşlı kənd sakini Abuşov Yusif Mahir oğluna və 19-20 sentyabr tarixlərində keçirilən lokal antiterror tədbirləri zamanı ağır yaralanan hərbi qulluqçu, Neftçala şəhər sakini Həşimov Mirtaleh Elçin oğluna baş çəkib, qayğıları ilə maraqlanıblar.




Allah vətən uğrunda can fəda edən şəhidlərimizin məkanın behişt eləsin. Qazilərimizə Allah şəfa versin, tezliklə sağlam həyata qovuşsunlar. Amin. Bütün ailə üzvləri ilə birlikdə hər birinə can sağlığı, YAP Neftçala rayon təşkilatının əməkdaşlarına dəyərli işlərində daim uğurlar diləyirik.

## 1 OKTYABR – “PROKURORLUQ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜ”




Bu il Azərbaycan Prokurorluğu 105-illik yubileyini qeyd edir. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir. Azərbaycan xalqının böyük dövlət xadimi, Ümummilli lider Heydər Əliyev milli prokurorluğun demokratik və hüquqi cəmiyyətdə rolunu nəzərə alaraq 17 iyul 1998-ci ildə oktyabr ayının 1-ni “Prokurorluq İşçilərinin Peşə Bayramı Günü” kimi təsis edilməsi haqqında Sərəncam imzalamışdır. Tarixi varislik missiyasını yerinə yetirən

Müstəqil Azərbaycan Respublikasında Ulu öndər Heydər Əliyev bu qərarı qəbul etməklə bir daha Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarını, Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas mənbə olaraq yad etmiş, yenidən tarixə gətirmişdir.

Bu gün cəmiyyətimizdə daim hüququn təminatçısı olaraq narahat, eyni zamanda şərəfli peşəni layiqincə yerinə yetirən bütün prokurorluq işçilərini, eyni zamanda rayonumuzda fəaliyyət göstərən Neftçala Rayon Prokurorluğunun bütün əməkdaşlarını peşə bayramları münasibətilə təbrik edir, onlara can sağlığı, daim dövlətimizin yüksəlişi naminə fəaliyyətlərində nailiyyətlər diləyirik.

## AHIL İNSANLARA QAYĞI VACİBDİR!

**1990-cı il dekabrın 14-də BMT-nin Baş Assambleyasının qəbul etdiyi qətnaməyə əsasən, 1 oktyabr “Beynəlxalq Ahıllar Günü”dür.**

Azərbaycanda Beynəlxalq Ahıllar Günü 1993-cü ildən başlayaraq qeyd olunur.

“ Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, 70 yaşına çatmış Azərbaycan vətəndaşları, habelə Azərbaycanda daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunurlar. Hazırda ölkəmizdə 460 mindən artıq ahıl insan vardır.

Ahıl insanlara diqqət və qayğı cəmiyyətimizdə daim qorunmalı, sevgi ilə yerinə yetirilməlidir. Xüsusilə, bu ulularımızın adəti olaraq gələcək nəsillərə miras kimi çatdırılmalıdır.

# ŞƏHİD ÖMÜRLƏR ƏBƏDİYAŞARDIR!

## ŞƏHİD BALAM, HABİLİM ...

Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Bu Zirvəyə qalxmaq hər kəsə nəsib olmur. Yalnız müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar yüksələ bilərlər bu uca zirvəyə. Şəhidlər ölmürlər, əksinə ölümləri ilə bir əbədilik qazanırlar.



*Ana, sil gözünü mən hələ sağam*
*Şuşada bülbüləm, Laçında dağam*
*Sanma ki, ölmüşəm, bitibdi ömrüm*
*Mən şəhid olmuşam, cənnətdə bağam.*

... Ananın gözləri pəncərənin qaranlığına dikilmişdi. Bətnində doqquz aydır ki, gəzdirdiyi övladını dünyaya gətirmək üçün xəstəxanaya gətirilmişdi. Binanın kəskin dərman qoxusu gələn havası onun burnunu qıcıqlandırır, boğazına yığılmış ağrının eşidilən səsə çevrilməsinə sayılı anlar qaldığını hiss edirdi. Bir tərəfdən həyəcan, digər tərəfdən yeni övladının dünyaya gəlmə sevinci onun bütün bədənini çuğlamış, sarıb-sarmalamışdı. Dəhlizdə gözləyən qadınlar – ana və qayınana bu səssizlikdən narahat olmağa başlamışdılar. "Görəsən, gəlinin vəziyyəti necədir?" – sualı hər ikisinin beyninin məşğul edən yeganə düşüncə idi. Bir azdan — sübh namazının ilk çağırışında palatadan qadın fəryadı eşidildi. Bayırda gözləyənlər narahatlıqla ayağa qalxdılar və bir-birlərini təskin edən sözlərlə ovunmağa çalışdılar. Və eşidilən çağa səsi bu dəfə azanın get-gedə möhkəmlənən səsinə qarışıb harmoniya yaratdı. Dünyaya bir oğlan uşağı gəlmişdi...

Babasının adını verdilər ona: Habil. "Adını biz verdik, taleyini Allah yazsın". – dedilər. Hələ kiçik yaşlarında anası Natəvan, atası Qulam kişi üçün bir dünya oldu balaca Habil. Böyüdü, böyüdükcə də özünəməxsus xarakteri formalaşdı. Hamıdan fərqli, hamıdan üstün mövqeyə doğru addımladığını nə Habil bilirdi, nə də valideynləri...

Natəvan ananın dediklərindən:

- Ağıllı, tərbiyəli, sakit, mehriban, ən əsası üzüyola uşaq idi. Ailəcanlı, zəhmətkeş idi. Elə ki bir az böyüdü, ailənin yükünün altına girdi. Təsərrüfat işləri ilə məşğul olaraq atasına, mənə kömək edirdi. Elə indi də onun əlinin zəhmətini yeyirik. Onun təsərrüfatda yetişdirdikləridir bizim bu gün əlimizdən tutan.

Bu yerdə ananın gözləri yol çəkdi. Mən isə Habilin şəklinə baxaraq düşünürdüm: "Görəsən, bu gənc ana qarşılaşdığı çətin sınaqdan necə keçəcək?" Hiss etdim ki, anaya mane ola bilmərəm. Özünün danışmasını gözlədim. Natəvan ana, nəhayət, fikirdən ayrılıb zəif təbəssümlə mənə baxdı. Çözələnmiş xatirələrini bir yerə yığmağa çalışaraq davam etdi:

- Habil ucaboy, yaraşıqlı oğlan idi. Əsgər gedəndə hündürləşdi, kişiləşdi birdən-birə. (Bu yerdə bayaq şəklə baxarkən Habilin gözəl gözlərinin məsumluğunu xatırladım). Ciddi idi, çox ciddi. Ancaq güləndə də gözəl gülürdü, bu zaman yanaqları batırdı. Eyni zamanda sakit idi mənim balam. Qürurlu idi. Utancaq, düz danışan, rəhmdil, məsum idi Habil. Ümidim, pənahım idi. Bir az da küsəyən idi. Buna görə onunla ehtiyatla rəftar edirdim. Qorxurdum ki, xətrinə dəyərəm, incidərəm onu. Bax bu şəklə, - deyə Natəvan ana oğlunun sonuncu şəklini göstərdi.

- Burda incikdir bizdən, axırıncı dəfə yanına getmişdik. O zaman çəkdirmişdik bu şəkli. Cəmi beş dəqiqə yanında olduq. İcazə vermədilər çox qalmağa. O da küsdü bizdən. "Doymadım sizdən" – dedi. Eh, ay bala, mən səndən doydum ki...

Ana yenə küskünləşdi. Oğlu ilə son görüşünü xatırlayıb susdu birdən-birə. Sonra gözləri dikilmiş nöqtəni sanki günahlandırırmış kimi əlavə etdi:

- Nə biləydim ki, son dəfə görürəm ciyərparəmi. Buraxmazdım onu. Doyunca öpüb-qoxlayardım balamı. Can balam, şəhid balam, körpə quzum Habilim.

Mən də boğazıma düyünlənmiş yaşı udaraq anadan gözlərimi yayındırdım. Təskinlik vermək üçün sözlər də aciz idi bu an.

Ana davam etdi. Hiss olunurdu ki, oğlu haqqında danışmaqdan doymur.



--- Ana-bala bir-birimizə çox bağlı idik. Vaxtının çoxunu mənimlə keçirmək istəyirdi. Uşaqlar nadinclik edəndə qardaşı və bacısını cəzalandırsam da, ona ürəyim gəlmirdi. Elə bilirdim ki, əmanət veriblər Habili mənə. Həmişə ürəyim narahat idi balamdan sarı. Nə vaxtsa onu kiməsə qaytaracam zənn edirdim. Elə də oldu. Vətən üçün böyüdürmüşəm Habilimi...

Abışov Habil Qulam oğlu 28 iyun 2004-cü ildə doğulmuşdur. O, 2010-cu ildə Qazaxbərə kənd ümumi orta məktəbinin birinci sinfinə daxil olmuş, Ruhəngiz müəllimdən dərs almışdır. 2019-cu ildə IX sinfi bitirib. 6 iyul 2022-ci ildə Neftçala Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətin karantin dövrünü Gəncə şəhəri "N" saylı hərbi hissədə keçirmişdir. Karantin müddətini bitirdikdən sonra Qusar rayonu hərbi hissəsində Türkiyə dövləti tərəfindən təşkil edilmiş komanda təlimində üç ay kurs keçərək sertifikat almış, öz hərbi hazırlığını daha da möhkəmləndirmişdir. Sonra Ağcabədi rayonu 161 saylı hərbi hissəyə göndərilmişdir. 2023-cü ilin mart-aprel aylarında Hadrut hərbi hissəsində qulluq edib. 2023-cü ilin may ayında yenidən Ağcabədi rayonu 161 saylı hərbi



hissəyə qayıdaraq xidmətini davam etdirmişdir. 19 sentyabr 2023-cü il tarixində başlanan döyüşlər zamanı Xocavənd istiqamətində hərbi əməliyyatlarda vuruşaraq qəhrəmancasına şəhid olmuşdur.

Qısa, lakin şərəfli bir yol keçib Habil! Tərcümeyi-halı üç-dörd cümləyə sığsa da, qəhrəmanlığı səhifələrə sığmaz Habilin. On doqquz yaşlı balamızın şanlı, nümunəvi, gələcək nəsillərə örnək olan həyat kitabı var bu gün.

Ən çox sevdiyi, əlinə qələm tutmağı, "Ana", "Vətən" kəlmələrini yazmağı, oxumağı öyrədən Ruhəngiz müəllimin dediklərindən:

-- Məktəbimizin şəhid şagirdi Abışov Habil Qulam oğlu Neftçala rayonu Qazaxbərəsi kəndində 2004-cü il iyunun 28-də dünyaya göz açmışdır. Sakit, tərbiyəli, intizamlı şagirdlərdən biri idi. İllər keçdi, gözümüzün önündə böyüyən Habil Vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollandı. 2022-ci ilin iyun ayında böyük sevinclə, təntənə ilə yola salındı. Hərbi xidmətini layiqincə yerinə yetirən Habil 2023-cü il sentyabrın 20-də azğın düşmənin gülləsinə tuş gəldi. Şəhidlik zirvəsinə ucaldı. Biz bu gün Habili fəxrlə anır, onun haqqında şagirdlərə sevə-sevə məlumat veririk.

Bu, Habilin sevimli müəlliminin onun haqqında xatirələridir. Habil bu gün təkcə Qazaxbərəsi sakinlərinin deyil, bütöv Azərbaycan xalqının yaddaşında dərin iz buraxaraq əbədiyyətə köçmüşdür. Bizim də borcumuz Habili, ümumən, şəhidlərimizin əziz xatirəsini yaşatmaq, anmaqdır.

*Mən Habiləm,*
*mən Poladam, mən İlqaram,*
*Mən yaşaram, ürəyimdə arzum var.*
*Mən şəhidəm, təki Vətən sağ olsun!*
*Sevin anam, cənnətdə bir oğlun var!*

***Ruhəngiz Əşrəfqızı,***
***Yazıçı - publisist***

**VƏTƏN UĞRUNDA ŞƏHADƏTƏ YÜKSƏLƏN OĞULLAR ƏBƏDİYAŞARDIR, ONLAR VƏTƏN TARİXİNİN PARLAQ ZƏFƏR YAZAN TARİXİNDƏ VƏTƏNLƏ QOŞA YAŞAYACAQLAR. ƏSRLƏR ÖTƏCƏK, NƏSİLLƏR DƏYİŞƏCƏK BU FƏDAKAR ÖMÜRLƏR UNUDULMAYACAQDIR!**
**MƏKANINIZ BEHİŞT OLSUN, ÖLÜMSÜZ OĞULLAR! ALLAH SƏBİR VERSİN HƏR BİR ŞƏHİD AİLƏSİNƏ. AMİN.**

## ŞAİR ATAMALI TALIBOĞLU --- 83

# TƏBİƏTİN YETİŞDİRDİYİ İNCƏ RUHLU TƏBİƏT ŞAİRİ



Bitki və heyvanlar kimi insanı da ilk növbədə onu əhatə edən ətraf aləm, təbiət, mühit yetişdirib formalaşdırır. Hər insan zahirən və daxilən xeyli dərəcədə onu əhatə edən ətraf aləmə, təbiətə, mühitə bənzəyir. Dağın, meşənin dağ, meşə adamı olur, düzənin, aranın düzən, aran. Biri sərt, döyüşkən, o biri sakit, aram. İnsana ilk “elmi”, “biliyi”, məlumatları da onu əhatə edən ətraf aləm, təbiət, mühit verir, insan hər şeyi onlardan öyrənib mənimsəyir. İnsanın daxili aləmini, ruhunu, mənəviyyatını da elə onu əhatə edən ətraf aləm,təbiət,mühit formalaşdırır, insan onlardan öyrəndiklərini təkrarlayır. Necə deyərlər, aşıq gördüyün çağırar. Bunu insanların seyrək yaşadığı, göz işlədikcə uzanıb gedən ucsuz-bucaqsız qarlı sahələrdən başqa heç nə gözə dəyməyən uzaq tundrada daha aydın müşahidə etmək olar. Oradakı adamlar nəğmə oxuyurmuş kimi ilk gözlərinə sataşan hansısa bir canlı, ya cansız əşyanın, varlığın adını tez-tez təkrarlayaraq zümzümə edirlər. Bu da onların ədəbiyyatı, ..mədəniyyəti, incəsənəti.

Zəngin təbiətli gözəl guşələrin, qaynar şəhərlərin zəngin, mükəmməl ədəbiyyatı, mədəniyyəti, incəsənəti olur, kasad təbiətli sakit guşələrin, gözdən uzaq ucqarların da kasad, bəsit. Məhz bu səbəbdən zəngin təbiətli zonalarda, həyatın qaynadığı iri şəhərlərdə elm, ədəbiyyat, mədəniyyət, incəsənət daha çox inkişaf edir, daha çox şair, yazıçı, incəsənət xadimi yetişir. Bunun əksinə rast gələndə gərək onun səbəbini, kökünü axtarasan. Ətrafda şoran torpaqlardan, qamış kollarından başqa heç nə gözə dəyməyən Xəzər kimi ucqar bir kənddə Atamalı Talıboğlu kimi incə ruhlu bir təbiət şairinin yetişməsi, yaşayıb yaratması kimi. Hərçənd bu ucqar kəndin də öz hüsnü, gözəlliyi var...

Atamalı Talıboğlunun adı mənə çoxdan, ötən əsrin 60-70-ci illərdən tanışdır.O vaxt o, Azərbaycan radiosu ilə sıx əlaqə saxlayır, ora müxtəlif xəbərlər, məzəli əhvalatlar, özünün şeirlərini göndərirdi, adı radio dalğalarında tez-tez çəkilirdi. Təəccüblənirdim, Xəzər kimi ucqar bir kənddə belə bir şair, hərtərəfli qabiliyyətə malik ziyalı necə yetişib? Sonra öyrəndim onun əsli uca dağlar diyarı Lerik rayonunun zəngin təbiətli Cəngəmiran kəndindəndir. Atamalı Talıboğlu 1940-cı il noyabrın 1-də bu kənddə dünyaya gəlib, orada boya-başa çatıb. Orta məktəbi bitirdikdən sonra N.Tusi adına Azərbaycan Pedaqoji İnstitutuna daxil olub, rayonumuzun Xəzər kəndində pedaqoji fəaliyyətə başlayıb. O vaxtdan da bu kənddə yaşayıb, heç vaxt kənara çıxmayıb. Bir şair kimi burada tanınaraq məşhurlaşıb...

Silsilə kitabları çap olunduqdan sonra Atamalı Talıboğlunun həmin kitablarda toplanan şeirlərində, poemalarında, yaradıcılığında təzədən tanıyıb kəşf elədim. Bu yaradıcılıq adama təbiətin lal guşələrindən, əlçatmaz dağların ucalıqlarından, sıx meşələrin dərinliklərindən axıb gələn saf, təmiz, dumduru irmaqları xatırladır. Elə irmaqları ki, özüylə daim həzinlik, kövrəklik, saflıq, təmizlik, daşıyır, dumduru ovqat oyadır. Atamalı Talıboğlunun paytaxtın gur ədəbi mühitindən kənar belə poeziya nümunələri yaratması təəccüblü göründüyü qədər də təbiidir. Lerik rayonunun Cəngəmiran kəndi kimi əsrarəngiz bir məkanda dünyaya gəlib saf havalı gözdən uzaq ucqar Xəzər kəndində yaşayan Atamalı məhz belə şair kimi də yetişməli idi. Əsl saflığı, bakirliyi, incə ruhu, duru ovqatı məhz Atamalının dünyaya göz açdığı Cəngəmiran kimi əsrarəngiz təbiətli, uzun illərdən bəri ömür sürüb yaşadığı Xəzər kimi ucqar kəndlərdə, təbiətin lal guşələrində qoruyub saxlamaq mümkündür.

Hər insan dünyaya qəlbinin gözü ilə baxır – zəriflər ətrafda zərifliklər, gözəlliklər, sərt təbiətli, qaba adamlarsa kobudluqlar, çirkablar görür. Ruhən zərif, incə qəlbə malik Atamalı Talıboğlu da hara baxsa, nədən yazsa incəliklər görür, zərif hissi və duyğuları qələmə alır. “Sökülən dan yerinin qızartısından”, “boylu-buxunlu çinarların” ucalığından, “meşəli çayların” duruluğundan, “hər növ ağacların yan-yana düzüldüyü” meşə yollarından, “allanan çöllər”dən, “qızıllanan meşələr”dən... ehtizaza gələn incə şair qəlbi bizi də kövrəkləşdirir, içimizi, ruhumuzu dumduru hisslərlə doldurur:

***Səhər tezdən seyrə daldım***
***Gülşəni mən, çəməni mən.***
***Bu yerlərə heç bu qədər***
***Vurulmamışdım ürəkdən.***
***Çəmən gördüm necə rəngdə,***
***Gülşən gördüm bər- bəzəkdə.***
***Gördüm torpaq, çöl allanıb,***
***Bütün meşə qızıllanıb...***

Atamalı Talıboğlunun 2003-cü ildə “Steyk” kiçik müəssisəsinin mətbəəsində çap olunmuş “Yaz ətri, payız həsrəti”, 2004-cü ildə “Araz” nəşriyyatında çap olunmuş “Dünya, sən kiminsən?”, 2005-ci ildə “Təknur” mətbəəsində çap olunmuş “Sizdən nigaranam mən”, 2007-ci ildə “Təknur” MMC – nin mətbəəsində çap olunmuş “Kəndim məni çağırır” və başqa bu kimi şeir kitablarında onun incə, zərif hisslərini əks etdirən lirik poeziyası ilə yanaşı günün aktual mövzularına həsr olunan ictimai-siyasi şeirləri, fəlsəfi düşüncələri, tikanlı sətirləri də toplanıb. Maraqlıdır ki, siyasi mövzulu şeirlərində də Atamalı Talıboğlu lirik şair olaraq qalır, bu mövzunu həssaslıqla qələmə alır:

**Heydər - işıq, Günəş- işıq.**
**Bu sözlərin mənasında**
**Var oxşarlıq, var yaxınlıq.**
**Biri dünya yaranandan yaranıbdır,**
**Biri isə - min doqquz yüz**
**iyirmi üçdə, -**
**Bir yaz günü doğulubdur...**

Onun “Dünya, sən kiminsən?!” kitabında toplanan şeirləri “Heydər-işıq, Günəş- işıq”. “Sökülən dan yerinin təmiz havası”, “Bir az da düşünək”, “Rənanın kuklası”, “Tikanlı sətirlər” və “Oyanmış xatirələr” başlıqları altında təsnifatlandırılıb. Hər hissədəki şeirlər də insanı dərindən düşündürür, təsirləndirir, onun qəlbini saf, təmiz hisslərlə doldurur. Digər kitablarındakı şeirlərində də həmçinin.

Atamalı Talıboğlu nədən yazsa dünyanın, varlığın mahiyyəti haqqında düşünür, adamı saflığa, təmizliyə səsləyir, ötəri hisslərə qapılmamağı məsləhət görür. Çünki ürəkdən inanıb bilir ki:

**Süleymana qalmayan dünya**
**Qalmayacaq sənə də,**
**Qalmayacaq mənə də.**

İnanırıq Atamalı Talıboğlu ömrünün ixtiyar çağında da gənclik həvəsi ilə yazıb yaradacaq, oxuculara bundan sonra hələ çox incə poeziya nümunələri bəxş edəcək...

**ƏLÖVSƏT ƏLİYEV,**
**veteran jurnalist**

## ATAMALI TALIBOĞLU --- ŞEİRLƏR

***Qayıtma bir də***

Gəl məndən soruşma ayrıldıq niyə,
Niyə ilk sevgimiz bir xəyal oldu?
Qapandım mənasız, yersiz şübhəyə
Yerin ürəyimdə darısqal oldu.

Qəlbimi uşaq tək sən saldın ələ,
Yəqin ki, ürəyin bundan halidir.
Unutma, inamsız olan ailə
Haçansa uçmalı, dağılmalıdır.

Doğrusu sən bunu düz eyləmədin
Hörmətdən, izzətdən saldın bir adı.
Həm də ki, sən bunu hiss eyləmədin,
Bir insan qəlbinin özü qanadı.

Keçər günahından de, bu qədər kim?
Hər dəfə dedim ki, canın sağ olsun.
Daha demədim ki, inamlı eşqim –
Sənin əllərində oyuncaq olsun.

Gəl mənim dərdimi ayıltma bir də,
Yadıma salmaram mən səni qəti.
Elə get geriyə qayıtma bir də,
Artırma gözümdə kini, nifrəti.

Bəzən xatırlayıb ötüb keçəni,
Mən özüm-özümə nifrət edirəm.
Harda olsan belə taparam səni
Sən keçən yola da hörmət edərəm.

Köçər qapımızdan ayrılıq, hicran
Həsrətin əlindən qaça bilmərəm.
Yetim eşqimizi daha heç zaman
Başqa birisinə aça bilmərəm.

Çiçəkli yazımı döndərdin qışa,
Üstəlik sinəmə dağ çəkdin hələ.
Məhəbbət olsan da sən başdan-başa,
Yanıma qayıtma sən indən belə.

***Yolum düşməyir***

Çoxdandır dağlara yolum düşməyir,
Çoxdandır öpmürəm ayna suları.
Başımın üstündən ötüb keçməyir
Səfərə tələsən durna qatarı.

Bəlkə də göylərin qartalsız qalıb
Görəsən buludlar dolurmu yenə?
Dağlar səmaları çiyninə alıb
Arabir sazını çalırmı yenə?

Könlü gileylimi Sənəm xalanın,
Nə vaxtdır heç gedib yoxlamamışam.
Yolüstü dayanıb qızıl lalənin
Əyilib telini qoxlamamışam.

Könlümdə bir həsrət dinib, ay ana,
O yerdən qopulan kiçik bir daşam.
Bir gecə dönüb mən igid oğluna,
Yollarda düşmənlə vuruşacağam.

Gecələr qonşumuz hey oxuyardı,
Görəsən o məni soraqlayırmı?
Eşqimin şahidi o söyüd vardı
Küləklər heç onu varaqlayırmı?

Gəlib yetişəcək ayrılıq günü,
Görəsən yaz məni ötürəcəkmi?
Aranı dağlara aparan könlüm
Dağları arana gətirəcəkmi?

***Mərcan xala***

Yenə bahar gəlib yamaca, yola,
Könül istəyir ki, bülbüllər ötə.
Qapına gələn çox, ay Mərcan xala,
Elə hamısı da gəlir minnətə.

Çoxdur bağçasının çiçəyi, gülü,
Hər güldə bir nəğmə alışıb yanır.
Oxuyur bu bağın həm də bülbülü,
Odur ki, bağınız əlvan boyanır.

Bu qızın qız deyil, vallah bəladır,
Sanki bənövşətək kolda bürüşüb.
Yamacda nərgizdir, düzdə lalədir,
Çəməndə süsənlə dəyişik düşüb.

Yarpaq tək əsirsən bu qızın üstə,
Kirpiyi haçandı qovuşmaz olub.
Maşallah olubdur o boyu bəstə,
Ancaq ki, adama yovuşmaz olub.

Kimi axşam gəlir, kimisi səhər,
Qapını bağlama, düşmə acığa.
Gül, çiçək kimidir sevən ürəklər
Güdürlər doqqaza bəlkə qız çıxa.

Kimi çaya gəlir, kimi çörəyə,
Tənbəl uşaqlar da söz baxan olub.
Məhəbbət verməyə, tədbir tökməyə,
Oğlan anaları qəlb yanan olub.

Bilmirəm, səndə heç bu giley nədir?
Özün səs salmısan kəndə, mahala.
Sevəndə nə günah, günah səndədir,
Bir gözəl anası, ay Mərcan xala.

➡ 7

# ŞAİRƏ ZƏRXANIM ÜLVİNİN "SEVGİM HƏSRƏT BUTASI" KİTABI HAQQINDA RƏY

Əziz oxucular, mən Zərxanım Ülvinin əvvəlcə qəzet və jurnallarda çap olunmuş (üç kitablarından) şeirlərini oxumuşam. Şairənin nəzmə çəkdiyi şeirlərin hamısı demək olar ki, təqdirəlayiqdir. Onun əvvəl çap olunan şeirləri haqqında da rəy yazmaq istəmişəm. Lakin məktəb işləri ilə əlaqədar rəy yaza bilməmişəm. Qərara aldım ki, Ülvinin üçüncü kitabı haqqında öz fikirlərimi gənc və yaşlı oxucularımıza çatdırım.

Şairə Ülvi həyatımızın demək olar ki, bütün sahələrinə aid sanballı şeirlər yazmışdır. Onun bu kitabı ön söz və dörd hissəyə bölünmüşdür. 2009 –cu ildə çap edilən bu kitab 228 səhifədən ibarətdir. Onun Vətənə, torpağa, sevgiyə, insani ləyaqət, səmimiyyət, düşmənə qatı nifrət, dosta, övlada məhəbbət, alicənablıq, mərdlik və mənəvi təmizlik çağırışları oxuculara mənəvi ruh verir. Oxucu rəğbəti qazandırır. Şeirlərindən görünür ki, şairə xanımın el bayatılarına da meyli çoxdur. Şeirlərinin əksəriyyətində bayatılardan düzgün istifadə edir. Maraqlıdır ki, şairənin vaxtilə arzuladığı xəyallar artıq indi çin olmuşdur. İndi də keçək əsl mətləbə.

Kitabın birinci hissəsi "Vətən mənliyimin zirvəsi" adlanır. Şeir Ulu öndər Heydər Əliyevə həsr olunur. Onun bitib-tükənməyən həyat yolu, mərdliyi, cəsarəti, ümumbəşəri düşüncəsi, qorxmazlığı gözlərimiz önündə canlanır. Ulu öndərin dünyasını dəyişməsi təkcə müsəlman-türk aləminə deyil, bütün bəşəriyyətə təsir edir. Aləm ona hüzn saxlayır. Şairənin bir bənd şeirini xatırlamaqla fikrimiz tam aydın olar.

***Bu gecə dünyanın yuxusu qaçıb,***
***Açılıb göylərə fəryadın əli.***
***Bu gecə cismindən qərib ruh qaçıb***
***Yaman narahatdır, Vətən göyləri.***

Şairənin Vətənə, torpağa bağlılığı şeirlərində xüsusi yer tutur. O bilir ki, düşmən nə qədər yurdumuzda at oynatsa, gec-tez onun əvəzi on qat alınacaqdır. Şairənin dediyi və yazdığı kimi oldu. Onun "Xocalı qisasa çağırır bizi" şeirindən bir parça misal gətirə bilərik.

***Bu necə bəladır düşmüşük, Allah?***
***Doğma el, obadan keçmişik, Allah.***
***Vicdan əzabında bitmişik, Allah!***
***İçimdə hayqırır nifrət dənizi,***
***Xocalı qisasa çağırır bizi!***

Z.Ülvinin "Kövrək nəğmələr" bölümündə gözəlliyə, dosta, sevgiyə, səmimiyyətə aid şeirləri təqdirəlayiqdir. Bir bənd ilə fikrimi tamamlaya bilərəm.

"Gözəllik" şeirində:

***Dedin: "Nə gözəlsən – qəmə***
***boyandım,***
***Sanki yatmış idim, birdən oyandım.***
***Tez ol təkrar elə, dediyin sözü!***
***Anlaya bilmirəm, qəlbini düzü..."***

Şairənin "Bu sevgi çətin ölə", "Eşit-inanma", "Bilə-bilə" şeirləri də bu qəbildəndir. Zərxanım Ülvinin şeirlərinin əksəriyyətində ülvilik var, axıcılıq var, lirika var.

Nikbin şairənin "Baharda doğulmuşam" bölümündə toplanan şeirlər daha oxunaqlıdır. Şairənin



"Allahım qorusun sevənlərimi" şeiri daha maraqlıdır. Nikbin şairə elə, obaya, bizi Yaradana, ömrə, şeirə və sənətə olan məhəbbətini bariz şəkildə göstərir və şeiri, sənəti qoruyanlara da Allahdan uğur diləyir. Şeirdən bir bənd nümunə gətirirəm:

***Məni Yaradanın ərkinə şükür,***
***Sınağın boşuna-bərkinə şükür.***
***Canımda bar verən əkinə şükür,***
***Allahım qorusun sevənlərimi.***

Şairənin "Yaşamaq istəyirəm", "Gözlər", "Mən şeir vurğunuyam", "Dostluq", "Əyilmərəm", "Alqış", "Zaman" şeirləri çox mənalı və oxunaqlıdır.

Kitabın bölmələrindən biri də "Sizi vəsf edirəm" dir. Bölümdə verilən şeirlər müxtəlif çalarlı şeirlərdir. Hətta iki qəzəl, deyişmə, bir neçə fərqli insanlara ithaflar, yurdumuzun müalicəvi yerləri, xalq şairimiz Süleyman Rüstəmə nəzirə və s. yazmışdır. "O yaşdan deyil" şeirinin nəzirəsi və şeirə aid şairənin bir bənd şeirini oxumaq, elə bilirəm ki, oxucularımız üçün savabdır.

***A dostlar, deməyin dolmusan yaşa,***
***Şairəm yaşıma baxmayın mənim.***
***Çox ola çox illəri vurmuşam başa,***
***Ağaran başıma baxmayın mənim.***
***S. Rüstəm***

***Şairənin nəzirəsindən:***
***Sən haqqın qulusan susma,***
***Süleyman,***
***Sinəmdə çalxanır sel, yağış müdam.***
***Belə eşqə düşməz hər gənc, hər cavan,***
***Sən qəlbdən düşmüsən – o başdan***
***deyil!***

Kitabın son bölməsi "Çiçək əfsanəsi" adlanır. Əsər poema-nağıl üslubunda yazılmışdır. Poema qədim dövrə həsr olunmuşdur. Ən böyük təbib olan Loğmanın dövründən bəhs edir. Poemada gənc qız olan Çiçəklə Loğmanın gənc oğlu olan Əzizin nakam məhəbbətindən bəhs edilir. Şairə göstərir ki, haqsızlıq, mənəmlik, dinsizlik nəinki qədim dövrlərdə, hətta yaşadığımız dövrdə də mövcuddur. Bütün bunlara baxmayaraq xeyir şərə, haqq nahaqqa qalib gəlir. Mən yaşlı bir oxucu kimi məsləhət görürəm ki, gənc nəsil bu kitabı oxuyub faydalansın.

***İdris Abbasov,***
***Xol Qaraqaşlı kəndi, veteran müəllim,***
***10 oktyabr 2023-cü il***

## ATAMALI TALIBOĞLU --- ŞEİRLƏR

6 ←

**Yurdum**

**Gəlib, hər tərəfə iz salıb bahar,**
**Lalə göy çəməndə xalıdır, xalı.**
**Dağlara dırmaşır, qalxan cığırlar**
**Uca zirvələrin yoludur, yolu.**

**Həzin əsən külək gülün nəfəsi,**
**Yarpaq xışıltısı ağacın səsi.**
**Duman dərələrin həya pərdəsi,**
**Təpələr dağların oğludur, oğlu.**

**Saf bir şüşədir sanki göy üzü,**
**Günəş səmaların alışan gözü.**
**Bulaqlar dağların nəğməli sözü**
**Çaylar dənizlərin qoludur, qolu.**

**Üstünə şeh düşdü gülün, çiçəyin,**
**Üz-gözündən öpdü qızıl ləçəyin.**
**Sevincdən, fərəhdən dindi ürəyim**
**Yurdum gözəlliklə doludur, dolu.**

**Bir payız günü**

**Göyün topa-topa boz buludları,**
**Yağışa dönərək "gülmək" istəmir.**
**Çöllərin, düzlərin güzlək otları,**
**Solsa da, elə bil ölmək istəmir.**

**Yaylaqdan köçübdür daha**
**qonaqlar,**
**Ocaq yerlərində azca daş qalıb.**
**Hərdənbir səslənir sısqa bulaqlar,**
**Sükut bu yerlərə sanki köç salıb.**

**Qırova büründü hər qaya, hər dik,**
**Torpağa sarı kürk sərdi yarpaqlar.**
**Yerlərin canına düşdü sərinlik**
**Üşüdü, titrədi çılpaq budaqlar.**

**Yaşıl meşələrin saçı dağıldı,**
**Quşlar tərk eylədi yuvalarını.**
**Cüyürlər uşaqtək sanki ağladı,**
**Çəkdi xəlvət yerə balalarını.**

**Yamaca baxıram, yala baxıram,**
**Donları sapsarı, başları xına.**
**Cığıra baxıram, yola baxıram,**
**Sanki çəkiliblər qızıl suyuna.**

---

## "MƏDƏNİYYƏT İŞÇİLƏRİ - MƏDƏNİYYƏTİMİZİN KEŞİYİNDƏ"

*Ulu öndər Heydər Əliyev: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".*

20 oktyabr 2023-cü ildə Neftçala rayonunda Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədov adına Mədəniyyət Mərkəzi, Neftçala Tarix-Diyarşünaslıq Muzeyi, Neftçala Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Neftçala rayon komitəsinin dəstəyi ilə Mədəniyyət Mərkəzinin foyesində **"Mədəniyyət İşçiləri - Mədəniyyətimizin keşiyində"** adlı tədbir, sərgi təşkil olunub. Tədbirdə bu gün mədəniyyət müəssisələrində çalışan bir qrup əməkdaşlarla birlikdə təqaüddə olan keçmiş mədəniyyət işçiləri də iştirak etmişdir. Musiqili, xatirələr işığında davam edən edən tədbir xoş ovqat yaratmış, bir daha görülmüş işlərin dəyərinin qorunduğunu yada salmışdır. Bu gün bu sahədə daha çox birlik ruhu ilə çalışmaq, xalqımızın zəfər tarixinin tərənnüm edilməsi, bu yolda can fəda edənlərin əziz xatirəsinin unudulmayacağı qeyd edilmişdir.







G Ü N D O Ğ A R

30 oktyabr 2023-cü il

**KİTABLARI SEVİN, QORUYUN, OXUYUN, O SİZİN ƏN YAXIN DOSTUNUZDUR Kİ, DAİM AYDINLIĞA ÇIXARACAQ!**




Dünyada nə qədər kitab var belə
Çalışıb əlləşib gətirdim ələ
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr çıxardım. *(Nizami Gəncəvi)*
"Axmaqlarla oturub-durmaqdansa, kitabla
tənha oturmaq yaxşıdır". *(Qasım bəy Zakir)*
"Az pulla böyük sərvət əldə etmək
istəyirsənsə, –kitab al!" *(Tur Xander)*
"Bir mədəniyyəti yox eləmək üçün
kitabları yandırmağa gərək yoxdur.
Oxumağın qarşısını alın, yetər". *(R.Bredberi)*




## XARIBÜLBÜL HAQQINDA BİLDİKLƏRİMİZDƏN...

Sizə qeyri-adi, ecazkar bir gül haqqında danışmaq istəyirəm. Azərbaycanın ayrılmaz parçası olan Qarabağda məşhur bir gül bitir. Adına Xarıbülbül deyirlər. Xarıbülbül gözəl Qarabağı, onun baş tacı olan Şuşanı özünə məskən seçib. Tanrı Qarabağa bütün ilahi gözəllikləri, nemətləri bəxş edib.

Minilliklər boyu əcdadlarımız bu torpaqlarda yaşadı, yaratdı, savaş apardı. Cavanşir elinin igid oğlu Pənahəli xan Qarabağın ən hündür yamacında, sıx meşəliklər içində uca qüllələr, bürclərlə əhatə olunmuş alınmaz bir qala tikdi. Yer üzünün ən əsrarəngiz, bənzərsiz şəhəri - ŞUŞA Qarabağın mərkəzi oldu.




Qarabağ nağıllar aləmindəki 40 möcüzə, bir cənnət görərsən. 40-cı qapıya qapıya bənzər. Hər qapını açanda qarşında bir gül-çiçəkli, kəklikotu ətirli Cıdır düzü, çatanda yaşıl örpəkli Şuşanın sehrinə düşərsən: Topxana meşəsi, İsa bulağının zümzüməsi, şırıldayan Çətir şəlaləsi.

Qarabağ xanlarının yurdu, muğamın beşiyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa, həm də Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Bülbül, Xan əmi kimi dahi sənətkarların vətənidir. Şuşa dağlarının gözəli xarıbülbül də bu torpağın nəfəsi, suyu ilə yoğrulub.

Xarıbülbülü Qarabağsız, Qarabağı isə Xarıbülbülsüz təsəvvür etmək mümkün deyil. Yazda açılan bu çiçək incə, zərif bənövşəyi ləçəkləri ilə təbiətə bir gözəllik, lətafət gətirir. Xarıbülbül gülünün digər adı Qafqaz daş səhləbidir (latınca Ophrys Caucasia). Xarıbülbül səhləbkimilər içində nadir növ olub yalnız Azərbaycanda – Qarabağ torpağında yetişir. İgidlər oylağı, Qızıl Qayanın, Cıdır düzünün, Üçmıx dağının bəzəyi olan xarıbülbül doğma Şuşasından savayı heç yerdə bitməz, qol-qanad açmaz.

Bəs niyə bu gülə xarıbülbül deyirlər? Xarıbülbülə bu adı bülbülə bənzədiyinə görə veriblər. Gülün üzərinə sanki bir bülbül qonub. "Xar" isə tikan deməkdir, yəni "sinəsi tikanlı bülbül". Dünyanın heç bir yerində rast gəlinməyən, adı Şuşa, Qarabağla qoşa çəkilən xarıbülbül haqqında saysız-hesabsız əfsanələr, rəvayətlər dolaşır. Onlardan birini "Gül və Bülbül" əfsanəsini sizlərə təqdim edirik.

Bu əfsanədə deyilir ki, dünyanın ən gözəl, büllur kimi saf havası, bumbuz bulaqları, zümrüd meşələri, başı buludlara dəyən uca dağları olan cənnət bir diyarda bir-birinə aşıq bülbüllə gül yaşayırdı. Bülbül hər gün gülün yanına uçub gələr, şirin avazla ona nəğmələr oxuyub cəh-cəh vurardı. Bülbüllə gülün bu xoşbəxtliyindən hamıya pay düşərdi. Ətirli çiçəklər, pərvanələr onlara heyran olar, bu məhəbbəti alqışlayırdılar. Yalnız külək onları görəndə qəzəbindən coşub-daşar, bülbüllə gülün saf məhəbbətinə, mehribanlığına həsəd aparardı. Bir gün bülbül gülün görüşünə getmək istədiyi zaman bərk külək əsdi. Külək bununla güllə bülbülün görüşünə mane olmaq, gülü bülbülün gözündən salmaq istəyirdi.

Külək öz gücünə həddindən artıq güvənirdi. O əsəndə kolları, ağacları yıxıb aşırar, heç kimə və heç nəyə rəhm etməzdi. Bütün canlılar onun qarşısında əyilərdi. Külək də bu gücü ilə qürrələnər, ona ram olmayanları yerlə-yeksan edərdi.

Bu dəfə də külək qəzəbindən var gücü ilə əsməyə başladı. Nəhəng çinarlar, uca sərvlər və salxım söyüdlər onun qarşısında əyilməkdən başqa çarə görmürdülər. Zərif, gözəl ətirli gül isə küləyə təslim olmurdu. Küləyin gücü gülü qorxutmurdu. Gülün iradəsi, yenilməzliyi küləyi heyrətə gətirirdi:

- Ey zərif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Bu qədər gücü hardan alırsan?

Gül məğrurcasına küləyə baxıb dedi:

- Məhəbbətimdən! Məhəbbətin gücü yenilməz olur. Bülbülün saf məhəbbəti məni baş əyməyə qoymaz.
- Baxarıq! Sən məhəbbətini sına, mən də gücümü...

Qəzəblənmiş külək bunu deyib var qüvvəsilə kükrədi. Çiçəklər, otlar, iri gövdəli ağaclar bədxah küləyin gücü qarşısında aciz idilər. Artıq gülün də müqaviməti tükənməyə başlayırdı, çünki o, tək qalmışdı. Əgər bülbül yanımda olsaydı...

Külək daha da coşdu. Nəhayət, gülün taqətdən düşüb titrədiyini gördü. Külək qələbəsindən sevinib daha da bərkdən uğuldamağa, ətrafdakı hər şeyi göyə sovurmağa başladı. Elə bu anda bülbül uçaraq özünü gülün imdadına yetirdi.
Bülbül sinəsini yavaş-yavaş əyilən gülün köksünə söykədi, onun qamətini düzəltdi, əyilməyə qoymadı. Ancaq bu zaman gülün xarı-tikanı bülbülün sinəsinə sancıldı. Bülbülün sinəsinin altı al-qırmızı rəngə boyandı. Bülbül yaralansa da, geri çəkilmədi, öz sevimli gülünü yalqız qoymadı. Məhəbbəti uğrunda özünü fəda edən bülbülün canı gülün ləçəyində donub qaldı...

O gündən güllə bülbül ömürlük bir-birlərinə qovuşdular. Bir daha ayrılmadılar.

Ülvilikdən, dostluqdan, mətanətdən boy alan gülün adı dillərdə xarıbülbül olaraq qaldı.

Xarıbülbül fədakarlıq, məhəbbət, sədaqət rəmzinə çevrildi.

***(Qeydlər Humayun Sevincin müəllifi olduğu "XarıBülbül əfsanələri" kitabından seçilmişdir).***

## ELAN

**Bildirilir ki, Neftçala rayon Xol Qaraqaşlı kənd sakini Əsgərov Taryel Əli oğluna 01.11.2011-ci ildə verilmiş reyestr № 807013001317 olan, sahəsi 2.85 (ha) şəxsi pay torpaq sahəsinin JN-266 nömrəli torpaq mülkiyyət hüququna dair dövlət AKTI itdiyi üçün etibarsız sayılır.**

**Baş redaktor:**

**B.H. NİFTALİYEVA**

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250
Qiyməti 50 qəpik.